UOT 94(479.24); UOT 2:008:37

GÜLZAR MƏMİŞOVA
M.F.Axundov adına Azərbaycan Milli kitabxanasının «Xarici dillərdə Ədəbiyyat və Beynəlxalq kitab mübadiləsi» şöbəsinin bölmə müdiri
gulzarmemisova@gmail.com

İSLAM DİNİNİN AZƏRBAYCANDA DƏRKİ VƏ ONUN ETİMOLOJİ PROBLEMLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/86-89

Din ağlı olan insanları öz istəklərilə dünyada və axirətdə səadətə çatdırmağa kömək edən ilahi bir qanundur. "Oxu" əmrilə başlayan İslam, ilk əmrilə özünün universallığını ortaya qoyan bir dindir. Hər zamanın öz insanına mesaj verən universal bir dinin "oxu" əmrilə başlaması, nə qədər təbii və uyğun bir başlangıc olur. Özünə arxalanmayan bir din,ilk əmrilə insanlığa belə meydan oxuya bilməz. Bu meydan oxuma "Rənginin boyağına güvənən xalçalar günəşdən qorxmaz" düsturunu bizim qarşımıza qoyur. Qurani-Kərimdə doxsan iki yerdə din adı keçir. İslam dininin Azərbaycanda və dünyada qayəsi insanların xoşbəxtliyidir. O, axırıncı dindir. Bu o demək olur ki, ondan sonra başqa din gəlməyəcək və bu qiyamətədək davam edəcək. İslam bəşəri bir dindir. Əvvəlki dinlər də peyğəmbərlər vasitəsilə müəyyən millətlərə çatdırılırkən, islam bütün dünyaya, bəşəriyyətə, insanlığa göndərilir və özündən əvvəl gələn – Allah tərəfindən göndərilən peyğəmbərləri və İlahi kitabları təsdiq edir. Bu dinin hədəfi insanı, dünya və axirətdə Allahın nemətlərinə qovuşdurmaqdır. Fransızlar "İslam"ı – "təslimiyyət", "boyun əymə" mənasında tərcümə etmələrinə baxmayaraq, bu ifadə ərəbcə ən gizli düşüncələrdən ən dəqiq hərəkətinə qədər bütün varlığını Allahın ixtiyarına buraxmağı, yəni onun qanununa boyun əyməyi öz hədəfinə alır. İslam bir davranış əxlaqıdır [1].

Açar sözlər: Din, Azərbaycan, insan, mədəniyyət, İslam.

Giriş. Dinşünaslar "Din" sözünün ərəbcə "deyn" kökündən yarandığını iddia edir, "İtaət", "Hesab", "Cəza", "Qarşılıq", "İnanc" kimi anlaşılmasını tövsiyyə edirlər. İnsanı heyvandan ayıran,ondan fərqli göstərən başlıca özəlliyi, daha doğrusu, insanın dini onu daima inanclı olmağa, hər hansı bir dini biliklərlə bağlamağa gətirib çıxarır. Adından da göründüyü kimi dini bildirən "Religio" (religare – bağlamaq) sözü dinin insanla Tanrı əlqələrini yaradan bir anlayış olduğunu bildirir. Şərqi Roma imperatorluğunun qurucusu I Konstantin yazır ki, din insanın Tanrı qarşısında borcudur və eyni zamanda insan ilə Tanrının arasındakı münasibətlərdir. Beləliklə, din keçmişdə və gələcəkdə də yüksək insani dəyərləri olan şəxslər tərəfindən, insanın özü üstündə sahibliyini hiss etdiyi sonsuz varlıqla – Allahla baş tutan münasibət, əlaqə kimi başa düşülür.

Azərbaycanda bir çox alimlər, müqəddəs kitablardan əlavə özləri də bəzi qaynaqlardan- arxeologiya, antropologiya və palentologiyanı araşdıraraq keçmişdə millətlərin, hətta tarixdən əvvəlki qəbilələrin dinləri və inancları olduğunu sübut etmişlər. Azərbaycan tarixinin bütün dövrlərində kütlələri daima özü ilə qarşılaşdırılan İslam, insanı həm daxilən, həm də zahirən bürüyən onun düşüncə və davranışlarında özünü göstərən bir predmet olub.

İslam dünyasının bir parçası olaraq Azərbaycan tarixində Səlcuqlu dövrü, kütlə idealogiyasında dəyişiklik etməyi yenilik kimi görür. İslam tarixini araşdıran türkoloq Vasili Vladimiroviç Bartold XI əsrə qədər olan dövrü Azərbaycan üçün böyük bir mücadilə dövrü adlandırır. İslamın Azərbaycana dini və siyasi bir fenomen olaraq gəlişi ikinci xəlifənin – Ömər ibn Xəttabın adıyla bağlanır. Azərbaycanın fəthi onun hökmranlıq vaxtına düşür. O, Sasanilərin ordusunda komandir olan Hürmüzandan soruşanda ki, Azərbaycandanmı, Farsdanmı yoxsa İsfahandanmı başlayaq, Hürmüzan cavabında: Fars və Azərbaycan eyni quşun iki qanadı kimidir, İsfahan isə başıdır. Başı kəsilən quşun uçması isə mümkün deyil. Beləcə Azərbaycan torpaqları hədəf olaraq götürülür. İlk müsəlman komandirləri fəth etdikləri şəhərin sakinlərilə imzaladıqları müqavilə, həmin yerdə İslamın yayılmasının dayaq nöqtəsi olur [2].

Fransız tədqiqatçı Emile der Menghen yazır: "İslam ürəklərə təkan verən bir çağırış tək, Şərq və Qərbi dinsizlik və qəflətdən oyatdı. Qəlblərə elə bir təsir bağışladı ki, bəşər tarixi heç bir əsrdə belə bir

daxili oyanış və ictimai hərəkata təsadüf etməyib". Azərbaycanın görkəmli karifeylərindən şair, filosof, nasir Seyid Əzim Şirvani, şairə, ictimai xadim, xan qızı Xurşidbanu Natavan, şair, ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xanın vəziri Molla Pənah Vaqif, tarixçi, kimyagər, şair, alim Mir Möhsün Nəvvab Ağamirzadə yaradıcılığında bu izlər açıq, aydın görünür.

İslam tarixində hətta digər dinlər haqqında məlumat vermə anlayışı Qurani-Kərimə qədər geriyə qayıdır. İslam fəlsəfəsinin öndə gedən simalarından böyük türk filosofu Əbu Nəsr Məhəmməd ibn - Əl- Fərah Əl Fərabinin din və kütlə ilə fikirləri "Əs – Siyasətül mədəniyyə" əsərində geniş qeyd olunur. O, siyasi avtoriteti təmsil edən hökmdar, fəzilət və hikməti özündə toplamış bir şəxs olaraq nübüvvət kürkü geymiş bir Əflan kimi göstərərək peyğəmbərliyin və dinin kütlənin həyatındakı əhəmiyyətini ortaya çıxarmağa çalışıb [3].

Azərbaycanda təsəvvüfün tarixini araşdıran Mehmet Ritim qeyd edir ki, XIX əsri Azərbaycanın təsəvvüf tarixində yeni bir dövr kimi saya bilərik. Bu dövrdəki təsəvvüfü kürdəmirli İsmail Siracəddin Şirvani adı ilə hallandırırlar və baxmayaraq ki, neçə əsr bundan əvvəl Azərbaycanda təriqətlər xaricində müstəqil sufilər – dahi Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Mahmud Şəbüstəri, Şəms Təbrizi kimi mütəsəvviflər olub.

Azərbaycanda İslam dini insanlar arasında heç bir ayrı seçkiliklə hallanmır. Məqsəd bu olub ki, bəşər öz mənşəyini bir kişi və bir qadından götürüb və kök, soy, dil, irq və sair çatışmazlıqlardan danışılmır. Çünki kimsə kimsədən bu mənada üstün deyil, nasionalizmdən söhbət gedə bilməz. Əsasən, insanları bir-birinə yaxınlaşdıran əqidə və fikir birliyi, ürəklərin bir-birinə bağlılığı, qohumluq bağlılığından möhkəm olur. Cəmiyyətdə ədalətlə yaşamağa, şərəflə, ləyaqətlə bir-birinin malını, namusunu qorumağa səy göstərir, ixtilafa yox, vəhdətə önəm verir. Millətçilik, irqçiliyin əsassız əqidə olduğunu təbliğ etdiyi üçün müxtəlif xalqlar və millətlər İslamı önəmsəyir. İslam insanlar arasındakı fərqi, üstünlüyü elm və əməldə görür, bu təqvadır. Təqva isə azadlıq deməkdir. O, ruhun zinətidir, adama toxunulmazlıq verir. Təsadüfi deyil ki, Azərbaycanın maarifpərvər oğlu Əli bəy Hüseynzadə "Bizim milli xarakterimiz İslamı tərənnüm edir"- deyir. Digər tanınmış ziyalımız Əhməd bəy Ağaoğlu isə "Bizim İslamı zorla, məhkum, məğlub olaraq deyil, hakim, qalib olaraq qəbul etməmiz, bizim üstünlüyümüzdür"-deyir [4].

Qardaşlıq və bərabərlik ideyaları Azərbaycanda və eləcə də dünyada insanlarin cəm halında Həcc və Ərbəin mərasimində iştirakı ümumi İslam qanunları əsasında olur. Ölkəmizdə vətənpərvərliyin köksü qabardan - Vətən eşqi də İslamdan gəlir. Zülmə və təcavüzə qarşı vətən oğulları döyüş meydanlarına daxil olaraq haqqı dirçəldib, zülmün kökünü kəsir.

Azərbaycanda İslamın həm də ailə dəyərlərini üstün tutması insanlar üçün ailənin təşkilinə önəm verir, ümumi mənəvi təmizliyi qoruyur.Mənəvi və əxlaqi bağlılığın möhkəmliyi Azərbaycan ailəsinin meyarı olur. Bu keşməkeşli həyatda rahat ailə mühiti tərəflərin bir-birini səmimi qəbul etməsi və hərtərəfli dərki İslam qanunlarının bariz nümunəsini göstərir.

Azərbaycanda İslamın digər bir qələbəsi xalqın sənətkarlıq nümunələrində özünü çox aydın göstərir. Məşhur fransız tarixçisi doktor Qustav Loben "Müsəlmanların keçmişdən qalan məscidlərinə, mədrəsə, mehmanxana və digər tikililərinə baxanda başa düşürük ki, İslamda din və mədəniyyət bir – birilə elə qaynayıb qarışıb ki, onların birini digərindən ayırmaq mümkün olmaz" [5].

Hər millətin mədəniyyəti onların zövq və bacarığında özünü göstərir.Bu azərbaycanlılar üçün sənətkarlıq nümunələri ola bilər. Təəccüblüsü budur ki, onlar belə incə və nəfis işləri ən sadə və adi alətlərlə yaradır. Çünki Azərbaycandakı memarların yaradıcılığı, qədim Qız qalası, Şirvanşahlar sarayı və eləcə də başqa sənətkarlıq nümunələrimiz – xalçalarımız, ipəklərimiz İslam mədəniyyəti təmsilçiləri olub. Bu sələflərindən ilhamlanan mədəniyyətimiz, dünyanı dolaşıb. İngilis alimi Çemberin "Etiraf etməliyik ki, müsəlmanlar öz insanlıq və səadət bəxş edən adət və ənənələrilə bizim torpaqlara işıqlı bir mədəniyyət bəxş etmişlər. Avropanın tərəqqi və inkişafında bu böyük mədəniyyətin oynadığı rolu təsəvvür etmək çox çətindir. Əgər 711-ci ildə Tariq ibn Ziyadın başçılığı altında müsəlmanlar Cəbəllüttariq boğazından Avropaya keçməsəydilər, biz indiki vəziyyətimizə heç vaxt nail ola bilməzdik" – eyhamında bizim də payımız var. Çünki İslam mədəniyyəti paylaşaraq genişlənir, yayılır. Hələ X əsrin ortalarında Bərdə şəhəri ən böyük ticarət şəhəri idi. Səyyahlar buradan yerli boya, müxtəlif çeşidli balıqlar və sair malları alıb, Hindistana və başqa ölkələrə aparırdılar. İslam düşmənləri belə bir dövrdə dinimizin mədəniyyət, elm və sair sahələrindəki müvəffəqiyyətini inkar edə bilməzlər.

XIV əsrin əvvəllərində Təbriz yaxınlığında Rəşidiyyə universitetinin şəhərciyində illustrasiyalı əlyazma kitabları hazırlayırlar. Tarixçilərin yazdığı və əslən yəhudi olan alim Həmədani Fəzullah Rəşidəddinin redaktoru və müəlliflərindən biri olduğu məşhur "Cami ət Təvarix"in üzünü köçürür, ona illustrasiya çəkirlər.

İslam mədəniyyətinin ən böyük inkişaf dövrü Abbasilər xilafətinin zamanına düşür. Əməvilər dövrünü də digər mədəniyyətlərlə tanışlıq dövrü kimi görmək olar.

Xalçaçılıq sənəti İslam mədəniyyətində əsas rol oynayır. Ən nadir xalça nümunəsi 1539-cu ildə toxunan Şeyx Səfi xalçası olub ki, Səfəvi hökmdarı I Təhmasibin sifarişilə Şeyx Səfi məscidi üçün toxunub. Hazırda o, Londonda Viktoriya və Albert muzeyində saxlanılır. İlk dəfə XIII əsrdə müsəlman alimi Yaqut Şihab əd-Din ibn Abdullah ər-Rumi əl Həməvi Azərbaycanda xalçaların toxunmasından xəbər verir. Lakin xalçaçılığın inkişafı Səfəvilərin hakimiyyəti dövründə olur. Gəncə, Şəmkir şəhərində keyfiyyətli yun məmulatları istehsal edilir. X əsr ərəb müəllifi əl-Müqəddəsi Qarabağ, xüsusilə Bərdə xalçalarının gözəlliyi və keyfiyyəti haqda məlumat verir [6].

Nəticə. Din bəşər cəmiyyətini tənzim edən, insanları ictimai qayda- qanunlara riayət etməyə hər şeydən artıq vadar etməyə sövq edən ən yaxşı ali üslubdur. Din əslində insanın özü ilə birgə tarix səhnəsinə çıxan, insanın ona, onun da insana bağlı olduğu bir vəhdətin məhsulu kimi görünür. Çünki din insanın həm daxili dünyasında, həm də onun yaşadığı cəmiyyətdə onu tamamlayır, digər tərəfdən bəzi istisnaları olsa da insan da dinsiz qala bilmir.

İslam Azərbaycanında təsəvvüfün də öz yeri olub. Bu, Qurani-Kərim və peyğəmbərimiz Məhəmməd Mustafanın hədislərilə bizə çatdırılıb. Məkkədə enən Quran ayələri daha mistik və cana yaxın olduğundan insanlar onları daha tez mənimsəməyi bacarir. Peyğəmbərimiz Məhəmməd ibn- Abdullahın Allahın nurundan yaranması (Nuri – Məhəmməd) mütasavviflərin təsəvvüfün ən gerçək mürşidini tapmasında görürlər.

İslamın uğuru dünya mədəniyyəti qarşısında təkcə elmi tədqiqatlar və kəşflərlə bitmir, kitabların yazılması, qorunması, elm sahələrinin yayılması da bu xidmətlərdəndir. Avropalılara bəxş olunan elmi məlumatlar ondan xəbər verir ki, müsəlmanlar qərblilərə həqiqətən müəllimlik edir. Ən maraqlısı budur ki, avropalı bu yolla qədim Roma və Yunan mənbələrini öyrənir.

Psixiatrist Tümer Türkbay belə izah edir ki, insanın uca bir qüdrətə bağlanması ona güc, qüvvət verir; dua, niyaz, sığınma insanı ucaldır. Allaha sevgi və ondan qorxma duyğusu ona qüvvətli iradə, sağlam bir xarakter qazandırır və müdrik bir şəxsiyyət kimi yetişdirir.

ƏDƏBİYYAT

1. Roger Garaudy. İslam'ın Aynası Camier. İstanbul, Türk Edebiyatı Vakfı, 2017, 264 s.
2. Aliyeva N. Azerbaycanda Türk İslam kültürü. İstanbul, Cinius yayınları, 2020, 276 s.
3. İslam Ansiklopedisi, C.9. İstanbul, TDV, 1994, 560 s.
4. Fazil Mustafa. Azerbaycan türkü'nün iman davası. İstanbul, Enes basın yayın ve matbaacılık, 2022, 639 s.
5. Seyid Müctəba Musəvi Lari. İslam və qərb mədəniyyəti. Qum, Darul-bashir, 2004, 288 s.
6. Aysel Abdullayeva. İslam mədəniyyəti: keçmişdən bu günə. Bakı, Tuna, 2018, 155 s.

ГУЛЬЗАР МАМИШОВА
Национальная библиотека Азербайджана им.М.Ф.Ахундова,
Заведующая отделом «Литература на иностранных языках
и международный книгообмен»

ПОНИМАНИЕ ИСЛАМА В АЗЕРБАЙДЖАНЕ И ЕГО ЭТИМОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Религия - это божественный закон, который помогает разумным людям достичь счастья в этом мире и в будущей жизни по своей воле. Ислам, начинающийся с заповеди "Читай", является религией, раскрывающей свою универсальность с первой заповеди. Какое естественное и подходящее начало для универсальной религии, которая дает послание своему народу, начиная с приказа читать. Религия, которая не полагается на себя, не может даже бросить вызов человечеству своим первоочередным порядком. Эта задача ставит перед нами формулу «Ковры,

цвет которых зависит от красителя, не боятся солнца». Слово религия встречается в девяноста двух местах Священного Корана. Цель ислама в Азербайджане и мире – счастье людей. Это последняя религия. Это означает, что после нее не придет никакая другая религия, и она будет продолжаться до конца. Ислам – это человеческая религия. В то время как предыдущие религии доносились до определенных народов через пророков, ислам ниспосылается всему миру, человечеству, и как гуманность подтверждает пророков, которые были до него – пророков, посланных Богом и божественными книгами. Цель этой религии – привести людей к Божьим благословениям в этом мире и в будущей жизни. Хотя французы переводят слово “Ислам” как “покорность”, “подчинение”, это выражение на арабском языке имеет целью передать все свое существование в руки Бога, от самых сокровенных мыслей до самых точных, действия, то есть подчиняться его закону. Ислам – это мораль поведения.

Ключевые слова: Религия, Азербайджан, человек, культура, Ислам**.**

GULZAR MAMISHOVA
National Library of Azerbaijan named after M.F. Akhundov,
Head of the department “Literature in Foreign Languages
and international book exchange"

UNDERSTANDING OF ISLAM IN AZERBAIJAN AND ITS ETYMOLOGICAL PROBLEMS

Religion is a divine law that helps intelligent people achieve happiness in this world and in the hereafter by their own will. Islam, which begins with the commandment “Read”, is a religion that reveals its universality with the first commandment. What a natural and appropriate beginning it is for a universal religion that gives a message to its own people to begin with the order to read. A religion that does not rely on itself cannot even challenge humanity with its first order. This challenge puts before us the formula “Carpets that rely on the dye of their color are not afraid of the sun”. The word religion appears in ninety-two places in the Holy Quran. The aim of Islam in Azerbaijan and the world is people's happiness. It is the last religion. This means that no other religion will come after it and it will continue until the end. Islam is a human religion. While previous religions were delivered to certain nations through prophets, Islam is sent to the whole world, mankind, humanity and confirms the prophets who came before it - the prophets sent by God and the divine books. The goal of this religion is to bring people to God's blessings in this world and in the hereafter. Although the French translate it as “Islam” - “surrender”, “submission”, this expression in Arabic aims to leave all of one's existence in the hands of God, from the most secret thoughts to the most precise actions, that is, to submit to his law. Islam is a morality of behavior.

Keywords: Religion, Azerbaijan, human, culture, Islam.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.